

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 56 (24.193)

31 mart 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Əhaliyə əmlak məsələləri ilə bağlı yüksəkkeyfiyyətli xidmət göstəriləcək

### Prezident İlham Əliyev Əmlak Məsələləri Dövlət Xidmətinin yeni inzibati binasının açılışında iştirak edib





Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin paytaxt Bakıda yeni inzibati binası istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni binanın açılışında iştirak edib.

Qeyd edək ki, son illərdə paytaxtda modern üslubda tikilən hündürmərtəbəli binalar sırasına daha biri əlavə olunub. Ulu Öndər Heydər Əliyevin adını daşıyan prospektdə ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bina barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, bina modern və postmodern üslubda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir. Hündürlüyü 125 metr olan bina 33 mərtəbədən ibarətdir. Yükdaşıyan konstruksiyaları 9 ballıq zəlzələyə davamlı olan binanın hər mərtəbəsi digər mərtəbəyə nisbətdə 2,65 dərəcə dönür və nəticədə, fasad müstəvisi 90 dərəcəlik burulma effekti yaradır.



Binanın daha bir diqqətçəkən cəhəti isə yuxarıdan baxanda kürsü mərtəbəsinin Azərbaycanın xəritəsi formasında inşa edilməsi və şərq tərəfdən "Xəzər dənizi" dekorativ hovuzu ilə əhatə olunmasıdır. İşçi mərtəbələri 254 otaqdan ibarət olan binada 537 əməkdaşın fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunmuş konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxanalar var. Binadaxili mikroiqlimin təmin olunması, səmərəli enerji sərfiyyatının tənzimlənməsi, işıqlandırma, yanğınsöndürmə və təhlükəsizlik sistemlərinin idarə edilməsi, fövqəladə hallar zamanı mühəndis-texniki sistemlərin tənzimlənməsi üçün İdarəetmə Mərkəzi qurulub. Göründüyü kimi, yeni binada tikintidə müasir çağırışların paytaxtımızın infrastrukturuna inteqrasiyası ilə yanaşı, işçi heyətin daha səmərəli çalışması üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar çərçivəsində əmlak məsələləri sahəsində də bir sıra irəliləyişlərə nail olunub. Belə ki, dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı, torpaq idarəçiliyi və digər sahələrdə mühüm işlər görülüb. Vətəndaşlara və sahibkarlara göstərilən dövlət xidmətlərində şəffaflığın artırılmasına, elektron xidmətlərin genişləndirilməsinə, vətəndaş məmnunluğunun yüksəldilməsinə xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, 2022-ci ildə vətəndaşlardan, sahibkarlardan, bələdiyyələrdən, dövlət qurumlarından Xidmətə 1 milyona yaxın elektron müraciət daxil olub.

Xüsusi vurğulayaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əks etdirilən tədbirlər, o cümlədən həmin ərazilərdə yerquruluşu, torpaqların elektron kadastr uçotu, torpaq tədqiqatları, torpaqların idarə edilməsi və işğal nəticəsində dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı işlər davam etdirilir. Məsələn, işğaldan azad edilmiş ərazilərdə ötən il 390 min hektar sahədə yerquruluşu, 283 min hektarda çöl torpaq tədqiqatı, 309 min hektarda geobotaniki tədqiqat işləri görülüb. Həmçinin azad edilən ərazilərdə indiyədək 14,1 min daşınmaz əmlakın ilkin inventarlaşdırılması işləri tamamlanıb. Bu sahədə uğurlardan biri də işğaldan azad edilmiş ərazilərdəki daşınmaz əmlak və infrastruktur obyektləri barədə toplanmış məlumatların etibarlı surətdə qorunmasının və səmərəli istifadəsinin təmin edilməsi məqsədilə Qarabağ Rəqəmsal Geo-İnformasiya Sisteminin yaradılmasıdır. Bu günədək rəqəmsallaşdırılması mümkün olan 164 minə yaxın tikili və qurğudan təqribən, 145 mini təsbit olunub və həmin sistemə daxil edilib.

**AZƏRTAC**

## Rəyasət Heyətinin növbəti iclasında bir sıra məsələlər müzakirəyə çıxarılıb

Dünən AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası olub. Bölmənin sədri, akademik İsmayıl Hacıyev iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib, sonra martın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi ilə Elm Günü münasibətilə keçirilən görüş barədə tədbir iştirakçılarına ümumi məlumat verib.



İclasda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 mart tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatlarının 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"nın təsdiq edilməsi, bölmə əməkdaşlarının kütləvi informasiya vasitələrində Qərbi Azərbaycan, Cənubi Azərbaycan və Zəngəzurla bağlı məqalələrinin dərcinə diqqətin artırılması, elmi-tədqiqat müəssisələrinin aylıq fəaliyyət planının hazırlanması və nəticələri ilə bağlı hesabatların tərtib olunması barədə danışılıb.

Gündəlikdəki bölmə əməkdaşlarının beynəlxalq bazalarda indeksləşmiş jurnallarda məqalə dərc etdirməsi sahəsində fəallığının artırılması, habelə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin müvafiq qərarı ilə Azərbaycan Respublikasında dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərə Rəqəmsal Obyekt İdentifikatorunun (DOI) alınması ilə bağlı müzakirə aparılıb, Rəyasət Heyəti məsələlərin həlli istiqamətində bəzi qərarlar qəbul edib.

*AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti*

## "Naxçıvan" Universitetində "Heydər Əliyev təqaüdü" təsis olunub



"Naxçıvan" Universitetində ali təhsildə yüksək nəticə əldə etmiş tələbələr üçün "Heydər Əliyev təqaüdü" təsis edilib və həmin təqaüdlərin təqdimedilmə mərasimi keçirilib. Tədbirdə universitetin rektoru, dosent Anar Kazımov çıxış edərək bildirib ki, "Heydər Əliyev təqaüdü"nün təsis edilməsi Prezident cənab İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı universitetin Tədbirlər Planında öz əksini tapıb.

Qeyd olunub ki, Ümummilli Liderimiz fəaliyyətinin bütün dövrlərində canından əziz bildiyi doğma Vətəninin və xalqının mənafelərini daim müdafiə edərək respublikamızın inkişafı üçün böyük işlər həyata keçirib. Ulu Öndərin Azərbaycanın xoşbəxt gələcəyi naminə misilsiz xidmətləri daim xatırlanır və diqqətdə saxlanılır. Bu gün universitetdə "Heydər Əliyev təqaüdü"nün təsis və təqdim edilməsi də buna əyani sübutdur.

Qeyd edək ki, "Heydər Əliyev təqaüdü" "Naxçıvan" Universitetinin hər fakültəsindən bir nəfər seçilməklə ali təhsildə yüksək göstəriciləri olan tələbələrə verilib. Hazırda universitetin 4 tələbəsinə – Pedaqoji fakültədən Minə Abdullayevaya, İdarəetmə fakültəsindən Turac Zeynalova, Xarici dillər fakültəsindən Nursel Həsənzadəyə və İqtisadiyyat fakültəsindən Gülşən Əhmədovaya "Heydər Əliyev təqaüdü" verilib.

Sonda tələbələr universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

*"Naxçıvan" Universitetinin mətbuat xidməti*

## Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu dövlət orqanlarının təsnifatından çıxarılır, tabelik qaydası dəyişir

Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu dövlət orqanlarının təsnifatından çıxarılır. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılan "Dövlət qulluğu haqqında" və "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsində əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru isə prokurorluqda vəzifələrin təsnifatından çıxarılır.

"Prokurorluq haqqında" qanuna təklif olunan dəyişikliyə görə isə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu Azərbaycan Respublikasının Prokurorluğu sistemindən də çıxarılır.

Qeyd edilib ki, qanun layihəsi Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun tabelik qaydası dəyişdirilməklə yenidən təşkil olunması ilə əlaqədar hazırlanıb.

**Xəbərlər şöbəsi**

*Ölkə Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə 2021-ci ildə Azərbaycanda xüsusi nümayəndəlik institutunun təsis edilməsindən keçən qısa zaman göstərdi ki, əsas məqsəd bu yeni idarəetmə modeli sayəsində şəxsi məsuliyyət hissini artırmaqla korrupsiyanın qarşısını almaq, əhalinin qayda-qanun çərçivəsində firavan yaşayışına, sərbəst biznes mühitinin yaradılmasına, dövlət-vətəndaş əlaqələrinin, mərkəzi-yerli hökumət təşkilatları arası münasibətlərin effektiv qurulmasına, nəzarət mexanizminin düzgün tənzimlənməsinə yol açmaqla ölkəmizin hərtərəfli inkişafına töhfələr verməkdir.*

# Yeni idarəetmə modeli ölkəmizin hərtərəfli inkişafına töhfə verəcək





Martın 28-də Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edən dövlət başçısı söylədiyi dərinməzmunlu nitqdə, verdiyi tapşırıqlarda bu amilə diqqət çəkərək nümayəndəlik institutunun ölkəmizin gələcək inkişafında əsas idarəetmə sütunu rolunu oynayacağını vurğuladı: ***“...Demək olar ki, indi bu təyinatdan sonra azad edilmiş əksər rayonlarda mənim xüsusi nümayəndələrim artıq fəaliyyətə başlayacaqdır. Hələ təkcə Kəlbəcər rayonunda təyin edilməyib, bu da olacaq. Bu ərazilərdə, eyni zamanda yeni idarəetmə üsulu da tətbiq edilməlidir və edilir. Gələcəkdə bu, yeni idarəetmə modeli kimi ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir. Yəni bu həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur. Əminəm ki, bu, təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə, ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir...”***

Ölkəmizin, Şərqi Zəngəzurun, Qarabağın ictimai-siyasi həyatında, iqtisadi potensialının gücləndirilməsində hər zaman xüsusi əhəmiyyət kəsb edən, nəqliyyat-logistika baxımından əvəzolunmaz rola malik, geostrateji mövqeyi ilə seçilən Laçın rayonuna Prezidentin xüsusi nümayəndəsinin təyin olunması, ardınca müzəffər Ordumuz tərəfindən yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar rayonun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəkliklərin, əsas və yardımçı yolların, eləcə də sərhədboyu geniş sahələrin nəzarətə götürülməsi son günlərdə baş verən hərbi-siyasi gərginliklərin fonunda, düşmən təxribatlarına qarşı “Dəmir yumruq” iradəsinin, qətiyyətinin növbəti təntənəsi oldu. Dövlət başçısı nümayəndəni qəbul edəndə rayonun işğal prosesindən başlamış azad olunması, yenidən qurulması prosesləri, görülən və görüləcək işlər, gələcək inkişaf perspektivləri ilə bağlı olduqca incə, vacib məqamlara toxundu. Dərinməzmunlu nitqdə ilk diqqətçəkən, hər dəfə xatırlanmalı, unudulmayan məqamlardan biri, deyərdim ki, birincisi vaxtilə ermənilərin qorxulu röyalarının rəmzi kimi “Qarabağın qara qapısı” adlandırdıqları Laçının necə işğala məruz qalması məsələsi idi. Belə ki, ölkə başçısının da qeyd etdiyi kimi, 1993-cü ildə Şuşanın işğalından bir neçə gün sonra Laçın rayonu da işğal edildi. Bu, ölkəmiz, laçınlılar üçün böyük faciə, AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti idi. Heç vaxt bağışlanmayacaq tarixi xəyanət. Məhz Laçının işğalından sonra rayonun yerləşdiyi mövqedən, bu ərazidən keçən dəhlizdən düşmən tərəfi Qarabağın əsas açarı kimi istifadə etdi. Beləliklə də birinci Qarabağ müharibəsində Laçının işğalı, digər rayonların, ümumilikdə, Qarabağın tamamilə Azərbaycandan qoparılmasına yol açdı. Çünki Ermənistan Laçın dəhlizi vasitəsilə silah-sursat, canlı qüvvə göndərirdi ki, bu amil də, əlbəttə ki, Azərbaycan üçün böyük itkilərə gətirib çıxardı. Məhz bütün bu üstün keyfiyyətlərinə görədir ki, 30 ilə yaxın aparılan danışıqlarda Ermənistan tərəfi, israrla bildirirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Bəzi Qərb dairələri, xüsusilə Fransa bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və düşmən tamamilə azğınlaşmışdı. Təsadüfi deyildi ki, işğal dövründə düşmən tərəfindən Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. Məhz, bu mənada, 44 günlük Vətən müharibəsində xüsusi strateji əhəmiyyətini, çətin relyefi, həmin vaxt qarşıdan gələn ağır, soyuq iqlimi nəzərə alaraq Laçın rayonunun hərbi deyil, hərbi-siyasi yolla, razılaşdırılmış formada azad edilməsi Azərbaycan üçün böyük diplomatik qələbə sayılır. Xüsusi vurğulamaq lazımdır ki, Laçın dəhlizi birincidə olduğu kimi, İkinci Qarabağ müharibəsinin də taleyində, xüsusilə Şuşanın işğaldan azad edilməsində böyük, həlledici rol oynadı. Ümumiyyətlə, müharibə dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifə kimi qarşıya qoyulmuşdu, nəticədə, faktiki olaraq rayonun cənub hissəsi, Güləbird, digər bir neçə kənd döyüş meydanında azad edildi və ordumuz Laçın-Xankəndi yoluna çıxdı. Hərbi ekspertlərin, müharibə iştirakçılarının da dediklərinə görə Ermənistanın Qarabağla əsas əlaqə yolu sayılan Laçın dəhlizi ordumuzun bölmələri tərəfindən tam bağlandıqdan sonra düşmən faktiki olaraq məğlubiyyətə düçar olduğunu anladı və kapitulyasiya aktına imza atmağa məcbur qaldı...

Laçın azad olunandan ötən müddət ərzində şəhərin, kəndlərin bərpası üçün bir çox işlər görülüb, hazırda 2025-ci ilin əvvəllərinə istismara verilməsi nəzərdə tutulan beynəlxalq hava limanı inşa olunur, yollar, su, kanalizasiya, elektrik enerjisi xətləri çəkilir, tunellər salınır. Bundan başqa, Laçın və Kəlbəcər rayonlarının su ehtiyatları hesabına böyük bir enerji mənbəyinin yaradılması nəzərdə tutulub. İndi Laçın, Kəlbəcər, Zəngilan və bir neçə digər rayonda su elektrik stansiyalarının tikintisi sürətlə gedir, 50 meqavatdan çox enerji alınır. Dövlətimiz tərəfindən qarşıya məqsəd qoyulub ki, azad edilmiş ərazilərdə bu ilin sonuna qədər su elektrik stansiyalarının gücü 200 meqavata, gələcəkdə isə 500 meqavata çatdırılmalıdır. Sadaladığımız və sadalaya bilmədiyimiz bütün bu kompleks tədbirlərin eyni anda icrasında əsas məqsəd Zəngilan rayonunun Ağalı kəndindən sonra Laçına da köçün həyata keçirilməsidir. Ölkə Prezidenti cənab İlham Əliyev Laçın rayonunda xüsusi nümayəndəni qəbul edən zaman rayonun bugünkü inkişafı ilə bağlı müəyyən məqamları diqqətə çatdıraraq məskunlaşma amilinə də xüsusi nəzər saldı, laçınlılara müjdəli xəbəri verdi: ***“...Sizə və Azərbaycan ictimaiyyətinə bildirmək istəyirəm ki, birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. Mənim göstərişimlə bütün bu işləri biz bu ilin sonuna qədər başa çatdırmalıyıq, bu, sadəcə, birinci mərhələ olacaq. Bu evlərin sayı göstərir ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar...”***

Dövlət başçısının da bildirdiyi kimi, məskunlaşma prosesində diqqət yetirilən məqamlar Laçında bəzi yerlərdə bir neçə kəndin sakinlərini bir yerə cəmləşdirməkdir. Çünki bu həm onların yaşaması, eyni zamanda nəqliyyat-logistika məsələlərinin həlli üçün daha əlverişlidir. Ərazi baxımından bir-birinə yaxın yerləşən kəndlərin sakinlərini bir yerə yığıb onlar üçün gözəl həyat, iş şəraiti yaradılması nəzərdə tutulur. Başqa sözlə, şəhərtipli kəndlər qurulacaq, eyni zamanda kəndlərin xarici görkəminə də xüsusi önəm veriləcək, yaşayış məntəqələri həm rahat, həm də memarlıq nöqteyi-nəzərindən çox gözəl olacaq. Məhz bütün bu yenidənqurma, bərpa tədbirlərinin getdiyi bir vaxtda xüsusi nümayəndə təyinatının da əsas məqsədi rayonun gələcək inkişafı, iş yerlərinin yaradılması, vətəndaşların rahat yaşaması ilə bağlı konkret əlavə təkliflərin verilməsi, qurulan infrastrukturun, ətraf mühitin qorunması, torpaqların zəbt, meşə fondunun məhv edilməsinə yol verilməməsi, bütün proseslərin qayda-qanun çərçivəsində icra olunmasıdır.

Ümumilikdə, ölkə Prezidentinin dərinməzmunlu nitqini nəzərdən keçirdikdən sonra əminliklə demək olar ki, laçınlıların öz doğma ata-baba yurdlarına qayıtmaları yönündə, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonunun ümumi inkişafına təkan verəcək işlərin görülməsi, innovativ layihələrin icra olunması iki il yarımdır müharibədən çıxmış, kifayət qədər maddi, mənəvi zərərlərə məruz qalmış bir ölkənin qüdrətinin, dövlətin siyasi iradəsinin sarsılmazlığını, dönməzliyini sübut edir. Dövlət başçısının hər birimizə böyük fəxarət gətirən, inam hissi bəxş edən nitqində də deyildiyi kimi: ***“...Bu iki il yarım müddət ərzində bütün dünya bir daha hər şeyi gördü. Eyni zamanda anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü. Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik. Onları məğlub etmişik və bir daha bütün dünyaya göstərmişik ki, biz istədiyimizə nail oluruq və olacağıq...”***

**✍ Nail ƏSGƏROV**

# 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə tədbirlər keçirilib



AMEA Naxçıvan Bölməsində 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş “Azərbaycanlılara qarşı soyqırımı siyasəti: səbəbləri və nəticələri” mövzusunda elmi konfrans keçirilib.

Konfransda giriş sözü ilə çıxış edən Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ermənilərin Azərbaycan torpaqlarına məqsədli şəkildə köçürülməsi, çar hakimiyyətinin, sonralar Sovet rəhbərliyinin tam dəstəyi ilə “dövlət” yaratmaları, tarixi torpaqlarımıza qarşı davam edən ərazi iddialarını gerçəkləşdirmək üçün əl atdıqları insanlıqdan kənar milli qırğın siyasəti barədə danışıb. Xalqımıza qarşı davam edən həmin siyasət nəticəsində XX əsrdə 2 milyona yaxın azərbaycanlının soyqırımı və deportasiyaya məruz qaldığını söyləyən İsmayıl Hacıyev bildirib ki, mart soyqırımı ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeydə alınan faktlar SSRİ dönəmində planlı olaraq təhrif edilmişdir. Yalnız Ümummilli Lider Heydər Əliyevin imzaladığı 1997-ci il 18 dekabr və 1998-ci il 26 mart tarixli fərmanlar ilə bu cinayətlərə siyasi-hüquqi qiymət verilmişdir.

Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirildiyini qeyd edən bölmə rəhbəri tarixi torpaqlarımıza qayıdışla bağlı Prezident cənab İlham Əliyevin qətiyyətli mövqeyindən və Azərbaycanın uğurlu xarici siyasətindən söz açıb. Akademik çıxışının sonunda xalqımıza qarşı törədilmiş milli qırğın, soyqırımı və deportasiya probleminin araşdırılmasında, eləcə də təbliğində ziyalıların mövqeyinin vacibliyini vurğulayıb.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Emin Şıxəliyevin “XX əsrdə azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətləri və onların mahiyyəti”, institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanovanın “Ümummilli Lider Heydər Əliyev və azərbaycanlıların soyqırımı və deportasiyası məsələsi”, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, dosent Elxan Məmmədovun “Ədəbiyyatımızda soyqırımı mövzusu” və Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun kiçik elmi işçisi Nilufər Ağayevanın “1948-1953-cü illərdə azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından deportasiyası və onun acı nəticələri” mövzulu məruzələri dinlənilib.

Məruzələrdə milli qırğın siyasətinin erməni ideologiyasının tərkib hissəsi olmasına, dindən uzaqlaşaraq terrora yönəlmiş erməni kilsəsinin mahiyyətinə diqqət çəkilib, etnik, dini zəmində törədilən soyqırımların yolverilməzliyi vurğulanıb. Azərbaycanlılara qarşı törədilən soyqırımı siyasətinin arxiv sənədləri ilə yanaşı, M.M.Nəvvab və M.S.Ordubadinin əsərlərində də əksini tapması faktı diqqətə çatdırılıb. 1905-1907, 1918-1920-ci illərdə ermənilərin Bakı, Quba, Naxçıvan, Qarabağ, Şamaxı və başqa bölgələrimizdə törətdikləri qırğınların dəhşətli nəticələrindən, Qaradağlı və Xocalıda eyni ssenari əsasında həyata keçirilən soyqırımlardan söz açılıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan xalqına qarşı törədilən qanlı cinayətlərə Ulu Öndər Heydər Əliyev tərəfindən hüquqi qiymət verilib, məhz dahi liderin təşəbbüsü ilə məsələ ilə bağlı tədqiqatlar genişləndirilib, soyqırımı və deportasiya faktı dünya ictimaiyyətinə bəyan edilib.

Sonda çıxış edən AMEA-nın müxbir üzvü, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyev mövzu ilə bağlı fikirlərini bildirib, məruzələr ətrafında müzakirə aparılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

* * *



Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə əvvəlcə soyqırımı qurbanlarının və Vətənimiz uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ali təhsil müəssisəsinin tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, 1918-ci il 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı soyqırımı törədiblər. Rəsmi mənbələrə əsasən soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.

Diqqətə çatdırılıb ki, 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli siyasi qiymət olub. Erməni vəhşiliyinin dünyaya təqdim olunması istiqamətində ardıcıl və məqsədyönlü işlər görüldüyünü xatırladan prorektor dövlət başçısı İlham Əliyevin “Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında” 2009-cu il 30 dekabr tarixli Sərəncamını bu istiqamətdə atılan mühüm addım kimi dəyərləndirib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən müharibəsindəki şanlı Zəfərindən də söhbət açan Rafiq Rəhimov gələcəyimiz olan gənclərin hər zaman vətənpərvər ruhda yetişməsindən qürur duyduğunu deyib. Eyni zamanda müasir informasiya texnologiyalarının imkanlarından istifadə edərək əsl həqiqətləri beynəlxalq aləmə çatdırmaq baxımından Azərbaycan gənclərinin üzərinə mühüm vəzifələr düşdüyü bildirilib.

Azərbaycan tarixi kafedrasının müdiri, tarix üzrə elmlər doktoru Xəzər Hüseynov “31 mart – tarixi yaddaşımızdan silinməyən soyqırımı” adlı çıxışında tarixi faktları qeyd edərək bildirib ki, XX əsrin əvvəllərində ermənilər ilk dəfə Azərbaycanın tarixi torpaqlarında yerli əhalini sıxışdırıb çıxarmağa başlayıb. Bu məqsədlə ermənilərin Azərbaycanda fəaliyyət göstərən terror təşkilatları 1905-ci ildə Bakıda, İrəvanda, Zəngəzurda, Qarabağda və digər yerlərdə kütləvi qırğınlar törədilib.

Tarix müəllimliyi ixtisasının III kurs tələbəsi Taləzar Muradova erməni vandalizmi – Naxçıvanda törədilmiş soyqırımlar haqqında danışıb.

Sonda soyqırımı hadisələrini əks etdirən sənədli film nümayiş olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Mart soyqırımı bəşəriyyətə qarşı ağır cinayətdir

*Tarixin müxtəlif vaxtlarında, eləcə də XIX-XX əsrlərdə xalqımızın başına bir sıra ağır faciələr gətirilib. Ermənilər öz məkrli siyasətlərini həyata keçirmək, tarixi ərazilərimizi işğal etmək və dövlətlərini qurmaq məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə və soyqırımı törədib, yüz minlərlə dinc azərbaycanlı öz ata-baba yurdundan didərgin salınıb.*

XIX əsrin əvvəllərində imzalanmış Gülüstan və Türkmənçay müqavilələri ilə tarixi torpaqlarımızın bölünməsinin əsası qoyulub və qısa müddətdə ermənilər kütləvi surətdə torpaqlarımıza köçürülüb. Havadarlarının himayəsi altında Azərbaycanın ərazisində məskunlaşdırılan ermənilər "Erməni vilayəti" adlandırılan inzibati bölgü yaradaraq azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətini həyata keçiriblər. 1905-1907-ci illərdə erməni təcavüzkarlarının azərbaycanlılara qarşı kütləvi qırğınları başlayıb, nəticədə, Bakı, Naxçıvan, Zəngəzur, İrəvan və digər tarixi torpaqlarda ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib. 1917-ci il oktyabr çevrilişindən sonra ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmaqla 1918-ci ilin martından "Əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur planı həyata keçiriblər. Tarixi mənbələrə əsasən 1917-ci ilin dekabrından 1918-ci ilin martına qədər Andronikin rəhbərliyi altında erməni qoşun hissələrinin iştirakı ilə, ümumilikdə, 197 kənd dağıdılıb, sakinlərin bir qismi qətlə yetirilib, digər bir qismi isə öz doğma ev-eşiklərindən didərgin düşüb, əmlakları, evləri talan edilib. 1918-ci il 30 mart-3 aprel tarixlərdə Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı qanlı soyqırımı törədiblər. 1918-ci il martın 31-də Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksutyun" partiyasının 4 minlik silahlı dəstəsi Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınında iştirak edib. Bu soyqırımı nəticəsində on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner soyadlı bir alman Bakı hadisələri barədə yazıb: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirlər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlının cəsədinin qulaqları və burunları kəsilmiş, qarınları yırtılmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər". 1915-1921-ci illər arasında havadarlarının təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90 mini ötüb. Bu hadisələr zamanı naxçıvanlılar da mərdliklə döyüşərək Naxçıvanın erməni işğalına məruz qalmasına yol verməyiblər. Üçüncü Kalbalı xanın başçılığı ilə yaradılan süvari dəstələr qəhrəmanlıq göstərərək ermənilərə layiqli cavab verib.



Sonralar Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası tərəfindən mart hadisələrini araşdırmaq üçün 1918-ci il iyulun 15-də Fövqəladə İstintaq Komissiyası yaradılıb. Bu komissiyanın məlumatlarında deyilirdi ki, azərbaycanlılara qarşı soyqırımı keçirən erməni quldurları Şamaxıda 8 minədək dinc sakini öldürmüş, Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi əhalisi ilə birgə tamamilə məhv edilmiş, Gümrü yaxınlığında, əsasən, qadınlardan, uşaqlardan və qocalardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək qətlə yetirilmiş, erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edilmiş, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür. Bütövlükdə, Zəngəzur qəzası üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı isə qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı qətlə yetirilmiş, kəndlər isə yerləyeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kəndi dağıtmış və əhalisini məhv etmişdir...

Şuranın qərarına əsasən 1919-cu və 1920-ci illərdə martın 31-i "Ümummilli Matəm Günü" kimi qeyd edilib. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra baş verənlərin araşdırılması dayandırılıb, hadisələrə siyasi-hüquqi qiymət verilməyib.

Yalnız müstəqillik dövründə tariximizin uzun illər gizli saxlanılan, saxtalaşdırılan və təhrif edilən dövr və hadisələrinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilib. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlərdən bir mühümü də artıq öz siyasi və hüquqi qiymətini almış Azərbaycanlıların Soyqırımı Günüdür. 1998-ci il martın 26-da Ulu Öndərin imzaladığı və böyük tarixi əhəmiyyət daşıyan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 1918-ci il martın 31-i "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd edilir. Bundan sonra həmin tarixin öyrənilməsi istiqamətində mühüm işlər görülüb, faciənin araşdırılması və həqiqətlərin dünyaya yayılması işinə başlanılıb. Bu məqsədlə çoxlu əsərlər yazılıb və əcnəbi dillərə tərcümə olunub, bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. 2007-ci il aprelin 1-də aşkar olunan Qubadakı kütləvi məzarlıq bu soyqırımının göstəricilərindən biridir. 2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamı ilə "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair Tədbirlər Planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksi ucaldılıb. 2013-cü il sentyabrın 18-də Quba Soyqırımı Memorial Kompleksinin açılışı mərasimində çıxış edən Prezident cənab İlham Əliyev deyib: ***"Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil Parkı yaradılıbdır. Yəni tarix, ədalət zəfər çaldı. Biz bu gün öz tariximizə qayıdırıq. Tarixin bütün məqamlarını bilirik, bilməliyik. Gənc nəsil də bilməlidir ki, xalqımız keçmişdə hansı fəlakətlərlə üz-üzə qalmışdır".***

Ölkə başçısının "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncamı soyqırımı tarixini araşdırıb, öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edib. Sərəncamda deyilirdi: *"Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".*

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti sonrakı dövrlərdə də fərqli formalarda həyata keçirilib. 1918-ci ildə Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi, 1920-ci illərdə sovet hökuməti tərəfindən Zəngəzurun ermənilərə verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası və digər bu kimi faktlar soyqırımı tarixinin faciəli səhifələridir. XX əsrin əvvəllərində çar Rusiyasının imperiya siyasətindən, 40-50-ci illərdə sovet rejimindən bəhrələnən erməni millətçiləri 80-ci illərin ortalarından başlayaraq yenidənqurma pərdəsi altında soyqırımı siyasətini daha da gücləndirib. Xalqımızın başına gətirilən qanlı faciələrə nə beynəlxalq ictimaiyyət, nə də ki ovaxtkı Azərbaycan Respublikasının rəhbərliyi vaxtında prinsipial qiymət vermiş, separatçı qüvvələr daha da qol-qanad açmışdır. 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsi nəticəsində yüz minlərlə azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilərək öz tarixi torpaqlarından qovulub, 1990-cı ilin yanvarında xalqımıza qarşı vəhşi cinayətlər törədilib, 1992-ci ildə qanlı Qaradağlı, Xocalı soyqırımı baş verib. Nəticədə, bir milyondan artıq soydaşımız öz yurd-yuvasından didərgin salınaraq hər cür qeyri-insani məhrumiyyətlərə düçar edilib. Lakin bu faciələrə, çətinliklərə baxmayaraq, xalqımız böyük əzm və möhkəm iradə nümayiş etdirərək müstəqilliyini qoruyub saxlaya bilib.

31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Ümummilli Lider Heydər Əliyev 30 mart 1999-cu ildə Azərbaycan xalqına müraciətində demişdir: – ***"Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun üçün isə yalnız möhkəm və yenilməz milli birlik nümayiş etdirməliyik. Xalqımıza qarşı törədilə biləcək hər cür xəyanətin və təcavüzün qarşısını hamımız üçün ali məqsəd olan müstəqil Azərbaycan dövləti uğrunda dönməz mübarizə əzmi və iradəsi ilə almaq olar".***

Ölkə başçısının rəhbərliyi ilə günü-gündən daha da inkişaf edən geniş iqtisadi potensiala malik qüdrətli Azərbaycan dövləti, eləcə də onun güclü Ordusu, xalqımızın sarsılmaz birliyi, həmrəyliyi Ermənistan dövlətinin və erməni lobbisinin təcavüzkar siyasətini dəfələrlə iflasa uğradıb. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt zəfəri, 2020-ci ildə İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu təcavüzkarlara layiqli dərs verib. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan cənab İlham Əliyevin güclü siyasi iradəsi, ordumuzun rəşadəti və xalqımızın birliyi ilə 44 günlük müharibə şanlı Zəfərlə başa çatdı. Vətənin qeyrətli, qəhrəman övladlarının şücaəti Ermənistanı Azərbaycan qarşısında diz çökdürdü. Qədim və əzəli torpaqlarımız düşmən tapdağından azad edildi. Bu gün həmin torpaqlar yenidən dirçəldilir, genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Torpaqlarımız uğrunda canını fəda edən şəhidlərimizin əziz xatirəsini daim yaşadır, qazilərimizin cəsarətini unutmuruq.

Vətən müharibəsində qazandığımız tarixi Qələbə xalqımıza qarşı törədilən soyqırımı siyasətinə ən tutarlı cavab idi. Lakin kapitulyasiya aktını imzalamaqla acı məğlubiyyətini etiraf edən Ermənistan ikitərəfli sülh prosesinə mane olur, təxribatçılıq siyasətindən əl çəkmir. Dəfələrlə tərəflər arasında baş tutan ikitərəfli, beynəlxalq səviyyədə görüşlərdən çıxan nəticədən isə aydın olur ki, Ermənistan sülh istəmir və ya sülh prosesinə uymayan təkliflər irəli sürmək və mütəmadi olaraq sərhəddə təxribatlar törətməklə hansısa məqsədlərini həyata keçirməkdə davam edir. Hər hansı erməni təxribatı rəşadətli Ordumuz tərəfindən layiqincə cavabını alır.

Fevralın 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda keçirilən plenar iclasda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumunda ölkəmiz Cənubi Qafqazda daim sülhün, sabitliyin, təhlükəsizliyin tərəfdarı olduğunu bir daha sübut etdi. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən plenar iclasda Prezident cənab İlham Əliyev dedi: ***"Hesab edirəm ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq. Ümid edirik ki, biz bu işi gec yox, tezliklə tamamlayacağıq. Düşünürəm ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər".***

Son vaxtlarda Ermənistan Azərbaycanın dövlət sərhədində insident törətməklə, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə silah-sursat və şəxsi heyət daşımaqla sülh prosesinə mane olur, təhlükəsizliyi pozur. Ümid edirik ki, Ermənistan tərəfi keçmiş səhvləri təkrarlamaqdan çəkinəcək, düşmənçilik səhifəsini birdəfəlik bağlamaq üçün addımlar atacaq. Əks halda dövlət başçısının da xatırlatdığı kimi ***"Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".***

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Soyqırımı qurbanları ehtiramla yad edilib

*Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının təşkilatçılığı ilə Yaycı kəndində Azərbaycanlıların Soyqırımı Günü münasibətilə tədbir keçirilib.*



Tədbir iştirakçıları əvvəlcə Yaycı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin ətrafında abadlıq işləri aparıb, yeni tinglər əkib, suvarma işləri həyata keçirib, abidə önünə gül dəstələri qoyaraq soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra kənd mərkəzində davam edən tədbirdə Yeni Azərbaycan Partiyası Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov çıxış edərək bildirib ki, təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı 200 ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarların köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq idi. Məhz bu səbəbdən 1918-ci ilin mart hadisələrində həddsiz sayda azərbaycanlı erməni zülmünün qurbanı olub. Bu hadisələr zamanı ermənilər tərəfindən törədilən cinayətlər Naxçıvandan da yan keçməyib. Ermənilərin Naxçıvana hücumu həmin ilin iyun ayına təsadüf edir. Tarixi sənədlərdə Şərur bölgəsinə bağlı 45 kənddə, Cəhri, Sirab, Nehrəm, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Nursu, Kolanı, Mahmudoba, Tumbul və onlarla başqa yaşayış məntəqələrinə hücum edən ermənilərə erməni cəlladı Andronik başçılıq edib. Vurğulanıb ki, Culfa rayonunun ən böyük yaşayış məskəni olan Yaycı kəndi də erməni daşnaklarının hücumuna, əhalisi soyqırımına məruz qalmışdır. Həmin vaxt 4 minə yaxın əhalisi olan Yaycı kəndi yerləyeksan edilmiş, kənd əhalisinin 2500 nəfəri qətlə yetirilmiş və minlərlə Yaycı sakini – uşaq, qadın, qoca erməni quldurlarından canlarını qurtarmaq istəyərkən yollarda öldürülmüşlər. Əbrəqunus, Qazançı, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədən ermənilər Ordubada doğru irəliləyərək orada da minlərlə günahsız insanı qətlə yetirmişlər.

Qeyd olunub ki, bu qanlı faciələrə siyasi-hüquqi qiymət verilməsi yalnız Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra öz həllini tapıb. Ulu Öndərimizin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə hər il respublikamızda 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunur, soyqırımı qurbanlarının xatirəsi yad edilir.

Sonra çıxışlar olmuş, Yaycı kənd 1 və 2 nömrəli tam orta məktəblərin şagirdləri soyqırımına aid şeirlər söyləmişlər.

**Aidə İBRAHİMOVA**

# Tarixin izi ilə – Yaycı soyqırımı

Ümummilli Liderimiz Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanı xalqımızın qan yaddaşını öyrənmək və xalqımıza qarşı törədilmiş soyqırımı hadisələrini unutmamaq baxımından atılmış mühüm addımlardan biridir. Son iki yüz ildə ermənilərin qədim Azərbaycan ərazilərinə köçürülməsi və onların zaman-zaman dinc insanlarımıza qarşı törətdikləri soyqırımı faciələri, tariximizin qanlı səhifələrini təşkil edir. Bu faciələr içərisində miqyasına görə ən böyüyü 1918-ci ilin mart ayında törədilmiş soyqırımıdır ki, bu da paytaxt Bakı şəhəri ilə yanaşı, ölkəmizin digər rayonlarını da əhatə etmişdir.

Həmin dövrdə Naxçıvan bölgəsinə yiyələnmək xülyasına düşən daşnaklar burada da yerli əhaliyə qarşı vəhşiliklər törətmiş, xüsusilə Culfa rayonunun Yaycı kəndində bu faciənin miqyası daha böyük olmuşdur. Yazıçı-publisist Fərəc Fərəcov 2002-ci ildə nəşr etdirdiyi “Yaycı soyqırımı” kitabında haqlı olaraq Yaycı soyqırımını “ən böyük qətliam” adlandırır. 31 mart azərbaycanlıların soyqırımı ərəfəsində Fərəc Fərəcovla bir daha həmin dövrdə Yaycı kəndində yaşanan faciəli hadisələrlə bağlı söhbət etdik.

Fərəc müəllim bildirdi ki, 1918-ci il iyun ayının 14-də ozamankı Naxçıvan qəzasının ən iri yaşayış məntəqələrindən sayılan Yaycı kəndi erməni Andronikin quldur dəstələrinin qəfil hücumuna məruz qalmışdır. Hücumdan əvvəl isə hiyləgər düşmən, yaxın qonşu kəndlərdə məskunlaşan Aza və Darkənd yaşayış məntəqələrinin erməni sakinləri Yaycıya gələrək kəndin ağsaqqallarına, başbilənlərinə demişlər: “Andronikin sizlərə heç bir xətəri olmayacaq. Onlar buradan sakitcə keçib gedəcəklər. Arxayın ola bilərsiniz”. Əlbəttə, kəndin ürəyiaçıq insanları tanış və həmişə get-gəl etdikləri ermənilərin bu “səmimi” sözlərinə inanıb, heç bir hazırlıq tədbirləri görməmişdilər. Beləliklə, İran ərazisindən Culfaya adlayan və Naxçıvanı qısa bir vaxtda işğal etmək qəsdinə düşən Andronik gözlənilmədən Yaycıya hücum çəkmiş, kəndi qırıb-çatmış, evlərə od vurub yandırmış, əhalini qılıncdan keçirmişdir. Araz çayı istiqamətinə axın edib İrana keçmək istəyənlərin də çoxu canlarını ermənilərdən qurtara bilməmişlər. Ümumilikdə, əldə edilən məlumatlara görə, təxminən, 2500 Yaycı sakini amansızlıqla qətlə yetirilmişdir. Ermənilərin kəndə hücumu gündüz vaxtına təsadüf etdiyindən əli iş tutan insanların çoxu çöl-təsərrüfat işlərində olmuş, buna görə də faciəyə düçar olanların çoxu uşaqlar, qadınlar və qocalar olmuşdur.

Müsahibimiz qeyd etdi ki, həmin gün kənddə onlarla ailə tamamilə məhv edilmiş, yüzlərlə insan şikəst qalmışdır. Onlardan bir neçəsi son illərdə dünyasını dəyişmişdir. Ağır işgəncəyə məruz qalmış Yaycı kənd sakinlərindən biri – qolu yox Yasəmən idi. Onun oğlu Əbülfəz Süleymanov deyirdi ki, anamgil 8 bacı olub, onların 6-nı ermənilər Arazın kənarında öldürmüşdülər. Sona adlı bir bacısını



İran tərəfə keçirə bilmişdilər. Yazıq qadının bir qolunu da erməni cəlladları həmin zaman vurub yerə salmışdılar.

Fərəc Fərəcov başqa bir misal da çəkdi ki, Yaycı soyqırımı zamanı kənd sakini Hüseyn Kazımoğlunun 16 yaşı olub. O danışırmış ki, həmin qanlı olay baş verəndə atamla birgə kənddən xeyli aralı “Dəyirmanaltı” deyilən ərazidə təsərrüfat işləri ilə məşğul idik. Axşamüstü kəndə dönəndə dəhşətli mənzərə ilə qarşılaşdıq. Nələr baş verdiyini qorxu içində öyrənməyə çalışırdıq. Evə çatanda isə anamın yerə sərilmiş meyidini gördük. Ermənilər yaxın adamlardan da bir neçəsini öldürmüşdülər. Canlı insan heç harada gözə dəymirdi. Sonra o, köks ötürüb dedi ki, evlərdə, küçələrdə, xüsusilə Araz çayı sahilində qətlə yetirilənlərin basdırılması üçün uzun günlər lazım gəldi. Kənddə soyqırımı qurbanlarının dəfn olunduğu yerdə böyük bir qəbiristanlıq yarandı. Yaycı 7 il yas saxladı. Uzun illər özünə gələ bilmədi.

Bu kədərli söhbətdən sonra Fərəc müəllim burada baş verənlərin ermənilərin xalqımıza qarşı törətdiyi əsl soyqırımı olduğunu dedi. Müsahibimiz onu da vurğuladı ki, şükürlər olsun, ötən əsrin sonunda müstəqilliyimizi yenidən bərpa etdik. Ötən dövrdə milli tariximizin araşdırılması, yenidən yazılması istiqamətində böyük işlər görüldü. Yaycı kəndində yaşanan həmin hadisələrin unudulmaması, soyqırımı qurbanları xatirəsinin əbədiləşdirilməsi üçün 2007-ci ildə kəndin mərkəzində abidə ucaldılıb. İndi hər il martın 31-də rayon sakinləri bu soyqırımı abidəsini ziyarət edərək tariximizdə yaşanmış bu qanlı hadisəni bir daha yad edirlər.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz şanlı Qələbə qazanmaqla ərazi bütövlüyümüzü bərpa etdi, eyni zamanda bu gün artıq soyqırımı qurbanlarının və bütün şəhidlərimizin ruhu şaddır. Şanlı ordumuz var olduqca, müstəqilliyimiz də əbədi olacaq və xalqımız bir daha bu cür ağır faciələri yaşamayacaq!

**Aidə İBRAHİMOVA**

# Yurd həsrətinin bitəcəyi gün yaxındadır

*Qaçqınlar, köçkünlər, gəlmələr də deyirdilər onlara məskunlaşdıqları yerlərdə. Kəndimizdə yaşayan ailəyə də gəlmələr deyirlər. Kəndin lap yuxarısında yaşayan bu ailənin bir qızı, onların dili ilə desək, hələ ara qarışmazdan əvvəl bu kəndə – Şərur rayonunun Ərəbyengicə kəndinə gəlin gəlibmiş. Ara qarışanda, yəni sovetlər birliyi dağılandan sonra “qonşularımızın” əsl sifətini görəndə onlar da zülmə dözə bilməyib köçüblər öz dədə-baba ocaqlarından. 1989-cu ildə Rza kişi ailəsini götürüb Şərur rayonunun Ərəbyengicə kəndində yaşayan qudalarının yanına köçüb. Böyük bir külfətlə qızının evində bir müddət yaşayandan sonra kəndin “Ağbağ” deyilən ərazisində onlara ev tikmək üçün torpaq sahəsi verilib.*





Həmin ailənin üzvləri indi də bu kənddə yaşayır. Qızı ***Nəcibə Şirinova***nın 70-ə yaxın yaşı var. Söhbət zamanı dedi ki, onların ailəsi Dərələyəz mahalının Qalaser kəndində yaşayıb uzun illər. Ata babaları bəy nəslindən olub. Rza kişinin atası “Mollabulağ” adlanan kəndin bəyi olub. Sovetlər birliyi yarananda bütün torpaqlar əllərindən alınıb kolxoza verilib. Rza kişi məşəbəyilik etməklə ailəsini dolandırıb. Nəcibə xala onu da deyir ki, atasıgil 8 qardaş olublar. Onlardan yeddisi İkinci Dünya müharibəsində həlak olub. O bildirdi ki, bağlı-bağatlı, gurbulaqlı kəndlərində Qaçaq Nəbinin yurdu, Zəncirli bulaq, Qalaca piri kimi bir çox tarixi yerlər sovetlər birliyi dağılmazdan öncəki illərdə də erməni vəhşiliyinə tuş gəlib. Ermənilər ata yurdlarında tez-tez qətllər törədib insanların ev-eşiyini dağıdıb, yandırıblar. Hətta 1989-cu ildə kənddən köçən camaatın yük dolu maşınlarına od vurulmuş lopalar atırdılar ki maşınlardakı yük və insanlar məhv olsun. Evimizi, yurdumuzu tərk etməyə məcbur qaldıq, amma ürəyimiz hələ də öz kəndimizdə qalıb, – deyən Nəcibə xala atasının ölən günə kimi elə hey öz kəndlərini yadına saldığını deyir: – Atam həmişə inanırdı, bir gün o yurdlarımıza geri dönəcəyimizə və vəsiyyət edirdi ki, evimizə, kəndimizə gedəndə ata-anasının qəbrindən torpaq götürüb onun qəbrinə səpək. Biz həsrətlə o günü gözləyirik. Atamın narahat ruhu da o günü gözləyir. Biz inanırıq ki, öz yurdumuza geri dönəcəyik.

Söhbətimizə qoşulan ailənin oğlu ***İman Şirinov*** ermənilərin vəhşiliklərindən danışıb dedi:

– Onlar həmişə üzümüzə gülsələr də öz xainliklərini gizlin də olsa yerinə yetiriblər. Ata-babalarımız, nənələrimiz çox söhbət açardı onların başımıza gətirdiyi oyunlardan, amma biz saf, açıqürəkli xalq olduğumuz üçün ermənilərə həmişə inanmışıq və yanılmışıq. Biz yaşadığımız ərazidə 8 azərbaycanlı kəndi var idi. Ermənilər bu kəndlərin münbit torpaqlarını görüb buralara yerləşdikcə bizim camaatı narahat etməyə başladılar. Oğurluqlar, əyriliklər getgedə çoxaldı. Sovetlərin vaxtında da onlar vəhşilik edirdi, amma nədənsə ermənilərə: – Gözün üstə qaşın var, – deyən olmurdu. Yaxşı yadımdadır, 1989-cu ilin sonları idi, bir qrup erməni sakini yaxın kəndin – Ələyəzin gənclərini barışıq adı ilə görüşə çağırmışdı. Həmin vaxt bizim qohumlardan da onlara qoşulan olmuşdu. 28 nəfərlik bir heyətlə əliyalın görüşə gedən sakinləri bir tövləyə qatan ermənilər tövləyə od vurub onları qətlə yetirmişdilər. Tez-tez azərbaycanlı kəndlərinə hücum edən ermənilər evləri talan edir, sonra da od vururdular. Məcbur qalıb yurdumuzu tərk etsək də, xəyalımız hələ də o dağlarda, meşələrdə qalıbdı. Bizim kimi yüzlərlə ailə həmin illərdə öz doğma ocaqlarından didərgin düşdü. İllər keçsə də, yaramız hələ də qabıq qoymayıb. Dövlətimizin apardığı düzgün siyasət nəticəsində inanırıq ki, biz öz doğma yurdlarımıza geri dönəcəyik. Bu inam əbəs yerə deyil – 44 günlük Vətən müharibəsində qazandığımız Qələbə bizdə bu inamı yaradıb.

Ailə ilə həmsöhbət vaxtı onların şəkillərinə baxırıq. Nəcibə xala oradan gətirdikləri fotoları masanın üstünə düzərkən gözündən damla-damla axan yaşı gördükcə daha yaxşı anlayıram onun ürəyində yanan atəşin necə alovlandığını. Bu yurd həsrəti idi, heç bir həsrətə bənzəməyən həsrət. Ancaq doğma torpağa qovuşanda, vüsala çatanda bitəcək bu həsrət. Biz hamımız, bütün Azərbaycan xalqı vüsalın yaxınlaşdığını hiss edirik. Bilirik ki, Müzəffər Ali Baş Komandan yurdundan ayrı qalan Ağalı sakinlərini öz evinə qovuşdurduğu kimi, Dərələyəzdən, Vedidən, Mehridən didərgin salınan insanları da öz yurduna qaytaracaq. Və həmin gün öz yurdundan uzaqda uyuyan insanların ruhu sakitlik tapacaq.

**Ramiyyə ƏKBƏROVA**

# Naxçıvan Dövlət Filarmoniyasının konserti olub



Naxçıvan Dövlət Filarmoniyasının Ordubad Rayon Mədəniyyət Sarayında təşkil olunan konserti Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmişdi.

Konsert zamanı Ulu Öndərin sevdiyi, ona həsr olunan mahnılarla yanaşı, bir sıra vətənpərvərlik ruhunda mahnılar da ifa olunub. Ələkbər Tağıyevin “El yolunda” mahnısı ilə başlanan konsertdə bir-birinin ardınca səsləndirilən “Vətən gözəl”, “Küçələrə su səpmişəm”, “Sevinc mahnısı”, “Ordubad”, “O Naxçıvandır”, “Yaşa, mənim xalqım”, “Min yaşasın”, “Ey Vətən oğlu” mahnıları və rəqslər tamaşaçılarda xoş ovqat yaradıb. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Hünər Əliyev, Zülfiqar Mahmudov, Filarmoniyanın solistləri Zamin Vəliyev, Nərmin Hüseynova, İsrafil Qibləliyev tərəfindən ifa edilən əsərlər Əməkdar artist Zeynalabdin Babayevin bədii rəhbəri olduğu Mahnı və Rəqs Ansamblının müşayiəti ilə təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi 2023-2024-cü tədris ili üçün liseylərə şagird qəbulu elan edir

### *Naxçıvan Qızlar Liseyi*

Liseyə şagird qəbulu cari ildə Naxçıvan Muxtar Respublikasının əhatə etdiyi ümumtəhsil müəssisələrinin IV sinfində təhsil alan qız şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Liseyə qəbul üçün aşağıdakı sənədlər tələb olunur:

- *Şəxsiyyət vəsiqəsinin surəti*
- *3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
- *Valideynin ərizəsi*
- *Təhsil aldığı məktəbdən arayış*
- *Sağlamlıq haqqında arayış (Forma 26.)*

Sənədlər 3 aprel 2023-cü il tarixdən 15 may 2023-cü il tarixə qədər saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Qızlar Liseyində qəbul ediləcəkdir. Sənəd qəbulu zamanı şagirdin iştirakı zəruridir.

Müsabiqə 27 may 2023-cü il tarixdə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 30, ingilis dili fənni üzrə 10 olmaqla, ümumilikdə, 3 fəndən 70 sual təqdim olunacaqdır.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Naxçıvan Qızlar Liseyi***
***İ.Məmmədov küçəsi 2***
***Əlaqə nömrələri: (036) 545-03-47***
***(036) 545-23-62***

### *Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey*

Liseyə şagird qəbulu cari ildə Naxçıvan Muxtar Respublikasının əhatə etdiyi ümumtəhsil müəssisələrinin VI sinfində təhsil alan oğlan şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

- *Şəxsiyyət vəsiqəsinin surəti*
- *3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
- *Valideynin ərizəsi*
- *Təhsil aldığı məktəbdən arayış*
- *Sağlamlıq haqqında arayış (Forma 26.)*

Sənədlər 3 aprel 2023-cü il tarixdən 15 may 2023-cü il tarixə qədər saat $9^{00}$-dan $18^{00}$-dək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə qəbul ediləcəkdir. Sənəd qəbulu zamanı şagirdin iştirakı zəruridir.

Müsabiqə 3 iyun 2023-cü il tarixdə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 20, riyaziyyat fənni üzrə 25, fizika fənni üzrə 25, ingilis dili fənni üzrə 15, biologiya fənni üzrə 5, coğrafiya fənni üzrə 5, tarix fənni üzrə 5 sual olmaqla, ümumilikdə, 7 fəndən 100 sual təqdim olunacaqdır.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey***
***Şərur şəhəri, Sabir küçəsi 26***
***Əlaqə nömrəsi: (036) 542-30-76***

### *Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey*

Liseyə şagird qəbulu cari ildə Naxçıvan Muxtar Respublikasının əhatə etdiyi ümumtəhsil müəssisələrinin VII sinfində təhsil alan oğlan və qız şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

- *Şəxsiyyət vəsiqəsinin surəti*
- *3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
- *Valideynin ərizəsi*
- *Təhsil aldığı məktəbdən arayış*
- *Sağlamlıq haqqında arayış (Forma 26.)*

Sənədlər 3 aprel 2023-cü il tarixdən 15 may 2023-cü il tarixə qədər saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseydə qəbul ediləcəkdir. Sənəd qəbulu zamanı şagirdin iştirakı zəruridir.

Müsabiqə 10 iyun 2023-cü il tarixdə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 15, riyaziyyat fənni üzrə 15, fizika fənni üzrə 10, ingilis dili fənni üzrə 10, kimya fənni üzrə 20, biologiya fənni üzrə 20, coğrafiya fənni üzrə 5, tarix fənni üzrə 5 sual olmaqla, ümumilikdə, 8 fəndən 100 sual təqdim olunacaqdır.

Muxtar respublika üzrə 30 qız, 30 oğlan olmaqla ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey***
***Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi***
***Əlaqə nömrəsi: (036) 550-50-16***

## Elan

“Xidmət” Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, Naxçıvan şəhəri, Xətai küçəsi 6 ünvanında yerləşən “Xidmət” ASC-nin inzibati binasında 19 may 2023-cü il tarixdə saat $11^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Cəmiyyətin ümumi yığıncağının reqlamentinin təsdiqi.*

*2. Cəmiyyətin 2022-ci ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı.*

*3. 2023-cü ildə cəmiyyətin fəaliyyət proqramına baxılması.*

*4. Sair məsələlər.*

***İdarə Heyəti***

## *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin 31 avqust 2020-ci il tarixli qərarı ilə nazirliyin nəzdində təsis edilmiş “Təhsil kursları” Məhdud Məsuliyyətli Cəmiyyətin fəaliyyəti dayandırılmış və ləğv edilmişdir.

***İtmişdir***

Naxçıvan şəhəri, B.Kəngərli küçəsi, ev $1^{B}$-də yaşayan Rəhimov Qurban Əli oğlunun adına olan fərdi yaşayış evinin 18660 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Çeşməbasar kənd sakini Qasımov Akif Rza oğlunun adına olan JN-$240^{A}$ nömrəli, 10310005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Abdullayev Elvin İlqar oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sylır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 223